Azərbaycan Respublikasının
Kənd Təsərrüfatı Nazirliyi

Aqrar Xidmətlər
Agentliyi

# Aqrar Təlim Mərkəzi



# Fındıq bitkisinin becərilməsi üzrə təqvim planı

www.axa.gov.az

# Fındıq bitkisinin becərilməsi üzrə təqvim planı

## Yanvar - Fevral



Havanın temperaturu <-8 °C-dən aşağı olan bölgələrdə ağacların donvurmadan qorunması üçün tədbirlər görülür. Zərərli orqanizmlərə qarşı qış müalicəsi aparılır. Sertifikatlı tinglərlə yeni bağların salınması həyata keçirilir. Yaşlı bağlarda budama (seyrəltmə və ya cavanlaşdırma), cavan bağlarda formavermə işləri aparılır. Torpağın münbitləşdirilməsi üçün üzvi gübrələr tətbiq edilir.

## Mart



Tumurcuqlar açanadək bağlarda yaz budaması aparılır, gövdə ətrafına üzvi və mineral gübrələr verilməklə bellənir, cərgə araları şumlanır. Xəstəlik və zərərvericilərə qarşı mübarizə işlərinə başlanılır. Fındığın çoxaldılması (kök pöhrələri və s. vasitəsilə) işləri davam etdirilir.Yeni bağlarda tinglərin əkini və suvarılması həyata keçirilir.

## Aprel



Ağaclarda budama, cavanlaşdırma, formavermə (iki illik bağlarda), gövdə ətrafının bellənməsi, gübrələrin verilməsi, cərgə aralarının şumlanması davam etdirilir. Xəstəlik və zərərvericilərə qarşı mübarizə işləri davam etdirilir. Torpaq-iqlim şəraitindən asılı olaraq suvarma işləri aparılır.

## May - İyun



Xəstəlik, zərərverici və alaq otları ilə bağlı müşahidə və mübarizə tədbirləri və suvarma işləri davam etdirilir. Yaşıl budama işləri başlanır. Yarpaq analizi aparılır, lazımi mineral gübrələr tətbiq edilir.

## İyul- Avqust



Xəstəlik, zərərverici və alaq otları ilə bağlı müşahidə və mübarizə tədbirləri, suvarma və yaşıl budama işləri davam etdirilir. Məhsulun yığımına hazırlıq işləri görülür, anbarlarda dezinfeksiya və dezinseksiya işləri aparılır. Tam bioloji yetişkənlik dövründə məhsul yığımı həyata keçirilir. Yığım və daşınmada hava keçirən kisələrdən istifadə olunmalıdır.

## Sentyabr



Yığılmış qərzəkli fındıq yaxşı havalanan quru anbarda saxlanılmalı, gün ərzində bir neçə dəfə qarışdırılmalıdır. Aflotoksinin əmələ gəlməməsi üçün zədəli və çürük meyvələr seçilməlidir. Yeni salınacaq bağlar üçün seçilmiş sahələrdə üzvi gübrələrin verilməsi, plantaj şumu, malalama işləri aparılmaqla əkinə hazırlıqlara başlanılmalıdır.

## Oktyabr



Cavan bağlarda cərgə aralarının ağır və ya yüngul diskli mala ilə yumşaldılması və frez çəkilməsi, sertifikatlı tinglərlə  yeni fındıq bağlarının salınması həyata keçirilir. Yaşlı bağlarda budama (seyrəltmə və ya cavanlaşdırma), cavan bağlarda formavermə işlərinə başlanılır. Torpağın münbitləşdirilməsi üçün üzvi gübrələr tətbiq edilir. Xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri yerinə yetirilir.

## Noyab - Dekabr



Ting əkini, fındığın çoxaldılması (kök pöhrələri və s. vasitəsilə) işləri, bağlarda cərgə aralarının ağır və ya yüngül diskli mala ilə yumşaldılması və frez çəkilməsi, yaşlı bağlarda budama (seyrəltmə və ya cavanlaşdırma), cavan bağlarda formavermə işləri, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri aparılır. Torpaq analizinin nəticələri nəzərə alınmaqla üzvi (peyin) və mineral (fosfor, kalium) gübrələrin verilməsi, ağaclarda payız budaması həyata keçirilir. Sahəyə dondurma suyu verilir.



# Fındıq bitkisinin mühafizə sxemi

| Zərərli orqanizmlər | Aprel | May | İyun | İyul | Avqust |
|---|---|---|---|---|---|
| Moniloz<br>Dəmgil,<br>Unlu şeh və s | Carbendazim 500q/l- (75 q/100 litr suya), Difenoconazole 250 q/l- (0,2 l/ha), Propineb 700 q/l (1,9-2,0 l/ha) və ya Penconazole 100 q/l – (0,3-0,4 l/ha) tərkibli preparatların biri ilə | | | | |
| Bakterial ləkəlilik<br>Bakterial xərçəng | Xəstəliyin ilkin simptomları göründükdə tərkibində mis birləşmələri olan (1 %-li bordo məhlulu, 0,3 %-li mis-xloroksidi, 0,4 %-li kuprozan) preparatlardan biri ilə çiləmə aparılır | | | | |
| Amerika ağ kəpənəyi<br>Fındıq qurdu | Amerika ağ kəpənəyinə qarşı Diflobenzuron 480 q/l (20 ml/100 l suya), Fındıq qurduna qarşı Alfa cypermethrin 100q/(l 0,4 l/ha) və ya İndoxacarb 150 q/l – (0,45 l/ha) | | | | |
| Fındıq uzunburunu<br>Fındıq güvəsi<br>Qəhvəyi mərmər bağacıq | | Karbosulfan 250 q/l – 1,0-1,25 l/ha, Dimethoat (0,8-2,0 l/ha), deltamethrin (0,05-0,125 l/ha) İşçi məhlul 800-1200 l/ha | | | |
| Pambıq sovkası | I və II nəslə qarşı birinci dərmanlamanı təsiredici maddələri Lamda-cyhalothrin(0,1 l/ha) + Primiphos metil (0,8l/ha) qarışığı ilə, ikinci çiləməni Lamda-cyhalothrin (0,1 l/ha) + Lufeniron (0,3 l/ha) və s. | | | | |
| Alaq otları | | Diguat 150 q/l – (1,5-,2,0 l/ha),<br>Glyphosate 500 q/l – (2,0-4,0 l/ha) | | | |

